Salam, sevimli qonşu,

Mən Sofya, gənc tələbəyəm, ədalət tərəfdarıyam. Mən özüm nikbin adamam. Həyata və bütün vəziyyətlərə nikbinliklə yanaşıram.

Bilirsən, başlanğıcda düşünürdüm ki, sənə məktub yazmaq çox çətin alınacaq. Düşünürdüm ki, içimdə hər şey biri–birinə qarışacaq, keçmişi qurdalayıb tarixi xatırlayacağam, həyəcan yaşayacağam. Düşünürdüm ki, düzgün sözlər tapım ki, məktubum elə sənə qismət olsun, və sən məktubumu oxuyanda ən vacibi sülhsevərliyin qoxusunu hiss edəsən. Sonra başa düşdüm ki, yazarkən heç bir gərginlik, acı yoxdur yalnız sülh hiss edərək fikirlərimi kağıza verirəm. Hətta yeni qələm almışam ki, yeni bir zövqlə yazım. İstərdim ki, sən də öz duyğularını, öz xüsusiyyətlərini bölüşəsən.

Birinci xatirələrim atamla bağlıdır, o söyləmişdi ki, aramızda ziddiyyətlər var idi, sərhədlərimiz bağlıdır və sərbəst ünsiyyət qurub get–gəl edə bilmirik. Atam Yerasxda iştirak elədiyi döyüşlərdən danışıb, amma heç vaxt nifrət ya da pis mövqe nümayiş etdirmədi, əksini edirdi. Deyirdi ki, döyüşə sizə nifrət etdiyi üçün getmirdi, sərhədə gedirdi. Müharibəyə nifrət etdikləri üçün getmirlər, müharibə sadəcə özünü xilas etmək üçün bir üsuldur ki, iqtidarlar təhrik edirlər.

Ətafımda olan bir çox adam, ailəm danışırılar ki, sizinlə yan–yana eyni kənddə yaşamışlar, eyni məktəbə getmişlər, yaxşı dostları, yaxşı münasibətləri var idi.

Sərhədləri açmağa, dövlətlərin razılığa gələməyinə əngəl törədən "o üçüncü şəxs" SİYASƏTDİR.

Mən hiss edirəm ki, həyatda bizim böyük missiyamız var. Biz bir ideya ətrafına birləşib bizim sülh simvolumuzu müəyyən etməliyik. Dünyaya sübut edək ki, mümkün olmayan heç nə yoxdur. Yalnız istək, iradə və bir–birinə qulaq asmaq qabiliyyəti lazımdır.

Ümidvaram sən də istəmirsən ki, bu vəziyyət davam etsin, ki, məsələn 20 il sonra televizorun qabağında oturub cəbhədəki gərgin vəziyyəti barədə eşitməyəsən.

Sürəkli davam edən bu məsələni həll etmək üçün təşəbbüskarlar biz olmalıyıq ki, həyatımızda nə isə dəyişək, siyasi qərarlara təsir göstərək.

Mən inanıram ki, bu kiçik addımlarımızla, məktublar yazmaqla müəyyən qədər sülhə nail olmaq mümkündür.

Yəqin bu qədər. Məktubumu səmimiyyətlə yazmışam, sətiraltı heç nə yoxdur.

Sevgi və səbrsizliklə məktubunu gözləyəcəyəm.

Mənə qulaq asdığına görə təşəkkür edirəm.

Hörmətlə

Sofya